# Sosial islahatlar proqramı yeni istiqamətlər üzrə geniş miqyas alıb

***Ötən ilin sonunda Prezident İlham Əliyevin imzaladığı yeni fərman və sərəncamlar dövlət başçısının sosial sahəyə xüsusi qayğısını təzahür etdirməklə ölkəmizdə vətəndaş rifahının təminatı məqsədilə ardıcıl olaraq reallaşdırılan sosial islahatlar proqramının yeni istiqamətlər üzrə daha da genişlənməsinə imkan verib. Belə ki, dövlət başçısının təsdiq etdiyi yeni qanunla minimum aylıq əmək pensiyasının 20 faiz artımla 200 manatdan 240 manata çatdırılması 65 min pensiyaçını əhatə edəcək. Pensiya islahatlarının mühüm uğurlarından biri kimi, son 3 ildə minimum pensiyada 2,2 dəfə artım baş verməklə, 110 manatdan 240 manata çatdırılıb. Orta aylıq pensiya son üç ildə 60 faiz artaraq 331 manata, yaşa görə pensiya 358 manata çatdırılıb.***



Bu il il minimum pensiyanın pensiyaçılar üçün yaşayış minimumunu (176 manat) 36,4 faiz üstələyəcəyi gözlənilir ki, bunun üçün də illik 13,2 milyon manat əlavə vəsait ayrılacaq. Prezidentin sərəncamı ilə Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü və Yeni il bayramı münasibətilə 2021-ci il 30 dekabr tarixinə ünvanlı dövlət sosial yardımı alan ailələrin hər birinə 100 manat məbləğində birdəfəlik yardım ödənilməsi aztəminatı ailələrə sosial dəstək istiqamətində növbəti addım oldu. Sərəncam 200 mindən çox ailə üzvü olan 47 min ailəni əhatə etdi. Qeyd edək ki, həmin birdəfəlik yardım üçün 4,8 milyon manat ayrılmışdır. Ünvanlı sosial yardımın hər ailəyə düşən orta aylıq məbləği son 4 ildə 88 faiz artıb və hazırda 280 manatdan çoxdur.

Ölkədə Vətən müharibəsinin iştirakçıları daim yüksək diqqət və qayğı ilə əhatə olunublar. Dövlət başçısının 29 dekabr 2021-ci il tarixli sərəncamı da bunun daha bir nümunəsidir. Sənədə əsasən 2020-ci il sentyabrın 27-dən noyabrın 10-dək olan dövr ərzində Azərbaycan Respublikasının ərazi bütövlüyü uğrunda döyüş əməliyyatlarında iştirak etmiş şəxslərə yeni ildən "Müharibə veteranı" adı və "Azərbaycan Respublikasının Müharibə Veteranı" vəsiqəsi veriləcək. Qeyd edək ki, aidiyyəti qurumlar tərəfindən bu status Nazirlər Kabineti ilə razılaşdırılmış siyahı əsasında veriləcək və "Müharibə veteranı" adı və vəsiqəsi verilmiş şəxslər barədə məlumatlar Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin "Zəfər" altsisteminə daxil ediləcək. Bu altsistemdəki məlumatlar əsasında onlara 2022-ci ildən proaktiv qaydada Prezidentin aylıq təqaüdü (80 manat) təyin edilib. Qeyd edək ki, həm hərbi qulluqçuların dövlət icbari şəxsi sığortası uçot sistemi üzərində yığım prinsipi ilə həyata keçiriləcək, həm də bu sahədə inzibatçılıq təkmilləşdiriləcək, sığorta ödənişlərinin vaxtında və dayanıqlı şəkildə ödənilməsi təmin olunacaq. Eləcə də, vətəndaş məmnunluğuna nail olunması üçün xidmətlərin keyfiyyəti artırılacaq. İdarəçilik və xidmətlərin elektron infrastrukturu qurulacaq. Həmçinin sığorta ehtiyatı formalaşdırılacaq və onun səmərəli idarə olunması nəticəsində əldə olunan vəsaitlər də şəhid ailələrinin və müharibə ilə əlaqədar əlilliyi müəyyən edilmiş şəxslərin sosial müdafiəsinin gücləndirilməsi üçün sərf olunacaq.

Bugünlərdə Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyindəki Sosial Xidmətlər Agentliyinin yeni Sosial Xidmət Mərkəzi fəaliyyətə başlayıb. Mərkəzin yaradılmasında məqsəd əhaliyə göstərilən sosial xidmətin səmərəliliyini artırmaqdır. Mərkəz Sosial Xidmətlər Agentliyinin 8 saylı filialının yerləşdiyi Abşeron rayonu üzrə fəaliyyət göstərəcək və ilk mərhələdə sağlamlıq imkanları məhdud uşaqları ilkin sosial reabilitasiya xidməti ilə təmin edəcək. Burada, həmçinin beynəlxalq təcrübəni əsas götürərək sağlamlıq imkanları məhdud olan uşaqların valideynləri üçün sosial-psixoloji yardım xidməti də təşkil ediləcək. Mərkəzdə uşaqların inkişaf səviyyəsi qiymətləndiriləcək, sosial-reabilitasiya proqramına uyğun olaraq fərdi və ya qrup terapiyalarına cəlb ediləcəklər. Uşaqlarla yanaşı, onların valideynləri də diqqət mərkəzində olacaq. Belə ki, psixoloq tərəfindən sosial-psixoloji vəziyyəti qiymətləndirilmiş valideynlər həm fərdi, həm də qrup terapiyalarına cəlb olunacaq, valideyn bacarıqlarının artırılması istiqamətində təlimlər keçəcəklər. Hazırda mərkəzin xidmətinə 38 nəfər sağlamlıq imkanları məhdud uşaq cəlb edilib və gündəlik proqrama uyğun olaraq fərdi və qrup məşğələləri keçirlər. Mərkəzdə sosial işçi, psixoloq, loqoped, sosial pedaqoq və aktiv terapiya üzrə mütəxəssis mültidissiplinar komanda şəklində xidmətlər göstərirlər.

ƏƏSMN hazırda 44 günlük Vətən müharibəsinə qədər olan dövrdə hərbi əməliyyatlarda, habelə hərbi xidmət vəzifələrini yerinə yetirməklə əlaqədar yaralanaraq əliliyi müəyyən olunmuş 62 nəfər şəxsin də yüksək texnologiyalı müasir – 4-cü nəsil protezlə təminatına başlayıb. Onlar nazirliyin tabeliyindəki Dövlət Tibbi-Sosial Ekspertiza və Reabilitasiya Agentliyinin Protez – Ortopedik İstehsalat və Reabilitasiya Mərkəzində həmin protezlərlə təmin edilirlər. Təqdim edilən "Genium" tipli yüksək texnologiyalı protezlər aktivlik və funksionallığı ilə seçilir. Həmin protezlər istifadəçiyə köməkçi vasitələr olmadan sərbəst və inamlı hərəkətə, qeyri-bərabər səthlərdə addımlamağa, müxtəlif məkanlarda manevsiz dönməyə, hərəkətin tam və daha dəqiq tənzimlənməsinə imkan verir. Qeyd edək ki, nazirlik tərəfindən eyni zamanda Vətən müharibəsi iştirakçılarının son nəsil protezlərlə təminatı prosesi davam edir. Artıq 185 nəfər Vətən müharibəsi iştirakçısı 193 ədəd yüksək texnologiyalı müasir – 4-cü nəsil protezlə təmin olunub.

Sosial islahatlar proqramının yeni istiqamətlərindən biri kimi onu da qeyd edə bilərik ki, ƏƏSMN-nin mərkəzləşdirilmiş elektron informasiya sistemində 2022-ci il iyulun 1-dək "Dövlət icbari şəxsi sığorta" yeni altsistemi yaradılacaq. Altsistem dövlət icbari şəxsi sığorta sahəsində idarəçilik və xidmətlərin elektron infatsrukturunun formalaşmasında önəmli rol oynayacaq. Nazirliklərin, Dövlət xidmətlərinin, agentlik və komitələrin altsistemə çıxışı təmin olunacaq. Həmin qurumlar tərəfindən dövlət icbari şəxsi sığorta ilə bağlı ƏƏSMN-nin tabeliyindəki Dövlət Sosial Müdafiə Fonduna təqdim edilməli olan məlumatlar həmin altsistemə daxil ediləcək. Nazirlik altsistemə daxil edilən məlumatların, o cümlədən dövlət sirrinin və qanunla qorunan digər məlumatların mühafizəsini təmin edəcək.

Vətəndaşlara göstərilən xidmətlərdən danışarkən, onu da xatırlatmaq yerinə düşər ki, Prezident İlham Əliyevin 25 iyun 2021-ci il tarixli fərmanı ilə yaradılan vahid əlaqələndirmə mərkəzlərində ötən dövrdə 6300-dək şəhid ailəsi üzvü və müharibə iştirakçısına xidmət göstərilib. Ötən il avqustun 23-dən Bakıdakı DOST mərkəzlərində, noyabrın əvvəlindən Abşerondakı DOST mərkəzində, dekabrın 24-dən isə 19 rayon və şəhəri də əhatə etməklə Gəncə şəhərində, Masallı və Ucar rayonlarında da regional vahid əlaqələndirmə mərkəzləri fəaliyyət göstərir. Bu mərkəzlərdə şəhid ailələrinə, müharibədə yaralanmış hərbçilərə "bir pəncərə"dən, operativ, şəffaf, vətəndaş rahatlığı və məmnunluğu prinsipi əsasında 26 istiqamətdə xidmətlər təqdim edilir.

Bir sözlə, ölkədə Azərbaycan Prezidentinin əsas diqqət göstərdiyi, daim nəzarətdə saxladığı məsələlərdən biri olan əhalinin sosial rifahının yüksəlməsi ötən illərdə olduğu kimi bu il də prioritet olacaq. Eyni zamanda, müharibə iştirakçılarının istər sosial-məişət, istərsə də tibbi-sağlamlıq problemləri ilk növbədə həll olunacaq.



***Zərifə BƏŞİRQIZI,***
***"Xalq qəzeti"***